# Qaramanlular

**I Şah Təhmasib dövrü (1524 – 1576)**

XV yüzilin başlarından bəri Gəncə və Bərdə tərəflərində yaşadığını gördüyümüz Qaramanlular, ilk öncə Qaraqoyunlulara, sonra da Ağqoyunlulara tabe oldular isə də digər oymaqlara nəzərən muxtar bir idarəyə sahib idilər. Ancaq siyasi baxımdan getdikcə əhəmiyyətlərini itirdilər. Səfəvi dövlətinin quruluşuna Qaramanlu Bayram Bəyin qatıldığını görmüşdük. Fəqət Bayram Bəy Ərzincandan hərəkət edildiyi zaman öz oymağına deyil, Zülqədər əsgərinə başçılıq edirdi. Təhmasib çağında bu oymağın adı nadirən keçməkdədir. Bütün bunlar Qaramanluların ikinci dərəcədəki oymaqlar arasında belə önəmli bir mövqeyə sahib olmadıqlarını ortaya qoyur. Hicri 955-ci (1548-1549) ildə Qaramanluların başında İbrahim Xəlifə ilə Bayram Xanın oğlu Hüsam Bəy görünməkdədir. Bunlardan İbrahim Xəlifə Gürcülər ilə edilən bir savaşda ölmüşdü. Hüsam Bəyə gəlincə onun hicri 985-də (1577) sağ olduğunu və eyni ildə bir yoxsulu öldürdüyü üçün asıldığını bilirik.

**I Şah Abbas dövrü (1587 – 1629)**

Əsl yurdları Qarabağ olan Qaramanlu oymağının Səfəvi dövlətinin quruluşunda rol oynadığını görmüşdük. Hər halda o zaman zəif bir durumda bulunan bu oymaq, Təhmasib və ilk iki xələfi dövrlərində heç bir varlıq göstərə bilmədi. Şah Abbas taxta keçər keçməz Qaramanluların taleyi yenidən parladı. Çünki Şah Abbasın baş sərkərdəsi (sipəhsalar) Fərhad Xan bu oymaqdan idi. Fərhad Xan, sahib olduğu məziyyətlər ilə böyük xidmətlər gördü isə də, hicri 1007-ci (1598-1599) ildə, yaxşı bilinməyən nədənlərdən dolayı, Abbas tərəfindən öldürüldü. Hətta Fərhad Xan, onu öldürmək üzrə çadırına girib üzərinə saldıran qul dəstəsindən Allah Verdi Xanın adamlarını görüncə Türkcə: «Beləmi oldu?» demişdir. Topqapı Sarayındakı Camiü’t-təvarix nüsxələrindən biri də Fərhad Xanın kitabxanası üçün hazırlanmışdır. Abbas, Fərhad Xanın qardaşı Azərbaycan bəylərbəyisi Zülfüqar Xana toxunmadı. Onu sonra geri alınan Şirvan bəylərbəyiliyinə təyin etdi. Ancaq o da hicri 1018-də (1609-1610 = İt ili) böyük qardaşının aqibətinə uğradı. Buyruğunda bulunan Qaramanluların bir qismi qorucular arasına qatıldı, bir qismi də Şirvan bəylərbəyiliyinə təyin edilən qul dəstəsindən Yusuf Xanın əmrinə verildi. Fərhad Xanın Əlvənd Sultan adlı digər bir qardaşı ilə Qaraman Bəy adlı bir qohumunu da tanıyırıq. Şah Abbasın ölümü əsnasındakı bu oymağa mənsub heç bir əmirə rast gəlinmir. Bununla birlikdə yuxarıda adı keçən Zülfüqar Xanın oğlu Hüsam Sultanın hicri 1046-cı (1636-1637) ildə, yəni Şah Səfi çağında Qızıl Ağac valisi olduğu görünür.

---

**Faruk Sümer — *«Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü»***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**